AZƏRBAYCAN RESPUBLIKASI
MƏDƏNIYYƏT VƏ TURIZM NAZIRLIYI

M.F.AXUNDOV adına
AZƏRBAYCAN MILLI KITABXANASI

XALQ ŞAIRI SÜLEYMAN RÜSTƏMIN 100 ILLIYIK YUBILEYINƏ

BAKI – 2006

AZƏRBAYCAN RESPUBLIKASI
MƏDƏNIYYƏT VƏ TURIZM NAZIRLIYI

M.F.AXUNDOV adına
AZƏRBAYCAN MILLI KITABXANASI

KITABXANA SIYASƏTI VƏ METODIK
RƏHBƏRLIK ŞÖBƏSI

Xalq şairi Süleyman Rüstəmin 100 illik yubileyinə həsr olunur

XALQ ŞAIRI SÜLEYMAN RÜSTƏMIN 100 ILLIYI ILƏ ƏLAQƏDAR

METODIK TÖVSIYYƏLƏR

Respublikanın kütləvi və ixtisaslaşdırılmış kitabxanaları, Mərkəzləşdirilmiş Kitabxana Sistemləri üçün metodik tövsiyələr

Mədəniyyət və Turizm Nazirliyi
nəzdində Koordinasiya Şurasının
2006-ci-il 21 iyun tarixli _2__ nömrəli protokolu ilə çapa tövsiyə olunub

BAKI – 2006

Tərtib edəni: Zenfira Sadiq qızı Qulamova, Kitabxana siyasəti və metodik rəhbərlik şöbəsinin baş kitabxanaçısı

Redaktor: Samirə Paşa qızı Eminova, Kitabxana siyasəti və metodik rəhbərlik şöbəsinin baş biblioqrafı

Rəyçilər: Fazil Həsənbala oğlu Məmmədov, M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının Elmi işlər üzrə direktor müavini, Pedoqoji elmlər namizədi

Xalq şairi Süleyman Rüstəmin 100 illiyi:Metodik tövsiyələr /Tərt. ed. Zenfira Qulamova, red.Samirə Eminova.-B.,2006.-19 s.

SÜLEYMAN RÜSTƏM – 100

Azərbaycan Respublikasının Prezidenti Ilham Əliyev Azərbaycanın Xalq şairi Süleyman Rüstəmin anadan olmasının 100 illik yubileyinin layiqincə keçirilməsini təmin etmək məqsədilə Sərəncam imzalayıb. Həmin sərəncama əsasən dövlətimiz görkəmli sənətkarın yubileyini yüksək səviyyədə qeyd etməyə hazırlaşır. Kitabxanalar da həmin sərəncama müvafiq olaraq şairin yubileyinin keçirilməsi üçün tədbirlər planı hazırlamalıdırlar.

Xalq şairi Süleyman Rüstəm XX əsr Azərbaycan ədəbiyyatının ilk təməlini qoyan yazıçılar nəslinə mənsubdur. Qüdrətli söz ustasının çoxcəhətli yaradıcılığı yeni səpkili milli poeziyanın təşəkkülü və inkişafı ilə bağlıdır.

Azərbaycan sovet şerinin yaranışı Süleyman Rüstəmin yeni sənət naminə əlinə qələm götürdüyü vaxtdan başlayır. Azərbaycanda sovet hakimiyyətinin qurulduğu ilk illərdən etibarən o, bütün istedad və bacarığını xalqa, ana Vətənə həsr etmiş, ədəbiyyatımızın mübariz bayraqdarı olmuşdur.

Süleyman Rüstəm poeziyaya 20-ci illərin əvvəllərində gəlmiş, təxminən əsrin axırıncı onilliklərinə qədər müstəsna bir yaradıcılıq ehtirası ilə yazıb-yaratmışdır.

Görkəmli Azərbaycan şairi, ictimai xadim Süleyman Əliabbas oğlu Rüstəmzadə Bakıda fəhlə ailəsində anadan olmuşdur. Ədəbiyyata həvəs onda hələ orta məktəbdə oxuduğu illərdə yaranmışdır. Hələ körpə yaşlarından köhnə dünyanın qəddarlığını, yoxsulların müsibət dolu güzəranını görmüşdü.

Zamanın, dövrün hər acısını dadmışdı. Çar çinovniklərinin harınlığı, milli burjuaziyanın nadanlığı, xarici müdaxiləçilərin hər addımda ucaltdığı dar ağacları onun yaralı qəlbini dönə-dönə qanatmışdı.

Süleyman Rüstəm üşaqlıq, ilk gənclik illərini xatırlayaraq yazır: «Uşaqlığım sabiq Quba meydanının yuxarısında keçmişdir. Atam əvvəllər gəmiçilik cəmiyyətində işləyirdi. Sonralar dəmirçixanada gün keçirərdi. Mən də ilk əmək fəaliyyətimə elə dəmirçixanada başlamışam.»

Ədəbiyyata gəlişini şair belə xatırlayır: «Səhnəmizin görkəmli simalarından biri sayılan Mirzəağa Əliyev o vaxtlar bizim məhəllədə yaşayırdı. Qayğıkeş və səmimi bir adam idi. Bir həftə gecəni gündüzə qatıb işlədim, «Çimnaz xanım yuxudadır» adlı birpərdəli, ikişəkilli komediya yazdım. Onu böyük qorxu, ehtiyat və utancaqlıq hissləri ilə Mirzağa əmiyə verdim. O, əsəri götürdü və məni bir ata mehribanlığı ilə yola saldı.O vaxtlar şerə də maraq göstərirdim. «Unudulmuş gənc» adlı şerimi müəllimim Seyid Hüseyn Sadiqə verdim. Bir gün həmin şerin «Maarif və mədəniyyət» jurnalında çap olunduğunu gördüm. Bununla da qarşımda yeni sənət yolu açıldı.»

O, ədəbiyyata 20-ci illərdə yeni ruhla, məzmunla, mövzu ilə gələn bir şair idi. Biz həmin illərdə çıxan bir çox şer kitablarına nəzər salsaq görərik ki, bu kitabların ikisinin adı proqram xarakterli adlardır. Bunlardan birinin adı «Ələmdən nəşəyə», o birinin adı «Günəşi içənlərin türküsü»dür. «Ələmdən nəşəyə» şer kitabının müəllifi Süleman Rüstəmdir. 1928-ci ildə Bakıda ilk kitabı çıxan Nazim Hikmətin «Günəşi içənlərin türküsü» kitabının redaktoru da Süleyman Rüstəm olmuşdur.

Süleyman Rüstəm inanırdı ki, həyat ələmdən, yəni kədərdən, dərddən nəşəyə, yəni sevincə, fərəhə doğru gedir. Amma onun da yaşadığı ömür, keçdiyi sınaqlar göstərdi ki, hələ nəşəyə çox var, hələ ələmli günlər xalqımızın taleyində çox olacaq və

Süleyman Rüstəm də bunların acısını hər zaman duyan, ifadə edə bilən bir şair olacaq.

20-ci illərdə Süleyman Rüstəmin Azərbaycan ədəbiyyatının təşkilatı işlərində də böyük xidmətləri olmuşdur.O, «Gənc qızıl qələmlər» cəmiyyətinin təşkilatçılarından biri kimi fəaliyyət göstərirdi.O, iki il Azərbaycan Dövlət Universitetində oxumuş, sonra təhsilini Moskva Dövlət Universitetində davam etdirmişdir.

Ilk kitabı – Almas Ildırımla yazdığı «Dün-bu gün»1926-cı ildə çıxmışdır. 20-ci illərdə Süleyman Rüstəmin ən mühüm yaradıcılıq fəaliyyəti «Ələmdən nəşəyə» oldu. Gənc şairin təxminən dörd illik poetik fəaliyyətini əks etdirən «Ələmdən nəşəyə» kitabı isə 1927-ci ildə nəşr olunmuşdur. Bu, yeni poeziyanın başlanğıcı idi.Kitab yaranmaqda olan yeni və döyüşkən şerin böyük həyati gücünü, ideya-estetik novatorluğu, xəlqilik və ideyalılıq kimi xüsusiyyətlərini çox parlaq bir şəkildə özündə əks etdirdi.

Ikinci dünya müharibəsi digər sənətkarlar kimi Süleyman Rüstəmin də yaradıcılığında vətənpərvərlik, qəhrəmanlıq mövzusunu ön plana çəkdi. «Ana və poçtalyon», «Qafqaz ordusu», «Ana ürəyi», «416», «Döyüşçüyə məktub», «Qafurun qəlbi», «Qəhrəmanın vəsiyyəti» və s. əsərlərində şair faşizmə nifrət oyadan, xalqı vətənin müdafiəsinə səfərbər edən əsərlər yazaraq igid döyüşçülərin, arxa cəbhədə fədakarlıq göstərən insanların lirik obrazını yaratmışdır.

Şair ordu sıralarında Cənubi Azərbaycana getmiş, oradakı soydaşlarımızın həyatı, mübarizəsi ilə yaxından tanış olmuşdur. Süleyman Rüstəmin müharibə dövrü lirikası bir xüsusiyyəti ilə önəmlidir. Bu müharibə illərində şairin lirikasında yeni bir mövzu istiqaməti – Cənubi Azərbaycan həyatını, orada xalqımızın keçirdiyi nəcib və ülvü hissləri qələmə alması, bü mövzuya poeziyasında xüsusi bir vüsət verməsi istiqamətidir.

Mərhum şairin müharibə illərində yazdığı «Ana və poçtalyon» şeri neçə-neçə anaların ürəyinə bir

təsəlli, ümid verdi. Həmin illərdə Süleyman Rüstəmin qələbəyə inamla yazdığı «Gün o gün olsun ki» şeri insanların ürəyində zəfərə, qələbəyə ümid yaratdı. Nəhayət, həmin illərdə və bir az sonra şair Azərbaycan ədəbiyyatına, şerinə Cənub mövzusunda, Cənub həsrətli bir çox gözəl şerlər bəxş elədi. Demək olar ki, ədəbiyyatımızın Cənub mövzusu ən çox Süleyman Rüstəmin Təbriz nisgilli şerlərində ifadə olunurdu.

Süleyman Rüstəmin poeziyasında Cənub mövzusu yalnız dərin, şəxsi bir mövzu deyildi, həm də dünyada baş verən proseslərlə səslənən mövzu idi.Müharibədən sonra yaratdığı «Iki sahil» şer kitabı bunun çox əyani bir təsdiqidir. Cənuba həsr etdiyi şerlərindən isə şair ayrıca bir kitab – «Təbrizim» adlı bir kitab nəşr etdirmişdir.

Müharibədən sonrakı dövrdə şair sülh və demokratiya uğrunda mübarizəyə, Kommunist partiyasına bir sıra şerlər həsr etmişdir. Bu illərdə şair ictimai-siyasi və məhəbbət lirikasının gözəl nümunələrini yaratmışdır. «Günəşli sahillərdə» (1963), «Bahar düşüncələri» (1965), «Keçilməmiş yollarla» (1970) və s.

Böyük sənətkar 1940-cı ildə yazdığı «Qaçaq Nəbi» mənzum pyesində xalq qəhrəmanının bədii obrazını yaratmış, Azərbaycan kəndlilərinin çarizmə qarşı mübarizəsinin real lövhələrini təsvir etmişdir. «Qaçaq Nəbi» haqlı olaraq tarixi-qəhrəmanlıq dramı kimi ədəbiyyatımızın və teatrımızın tarixinə daxil olmuşdur.

Süleyman Rüstəm Nizaminin «Sirlər xəzinəsi»ni, Şota Rustavelinin «Pələng dərisi geymiş pəhləvan» poemasının bir hissəsini, A.S.Puşkin, A.S.Qriboyedov, M.Y.Lermontov, V.Mayakovski, Nazim Hikmət və başqalarının bir sıra əsərlərini Azərbaycan dilinə çevirmişdir. Onun əsərləri bir sıra xarici ölkə xalqlarının dillərinə tərcümə olunmuşdur.

Süleyman Rüstəm 1989-cu ildə dünyasını dəyişmişdir. Onun ömrünün 60 ili bütünlüklə poeziyaya, yaradıcılığa sərf olunmuşdur.

Əlbəttə, Süleyman Rüstəmin yaradıcılığı zəngindir, çoxcəhətlidir, bu yaradıcılıq XX əsr ədəbiyyatının aparıcı inkişaf yolları və vəzifələri ilə dərindən, bütün mənəvi əsasları bağlı olduğu kimi həm də bu inkişafa güclü və dərindən təsir göstərmişdir.Yalnız bunu qeyd etmək kifayətdir ki, əsrin 20-ci illərindən sonra poeziya ilə başlayan ilk şair olaraq Süleyman Rüstəm poeziyada öz məktəbini yaratmış böyük bir şairdir. Onun poeziya məktəbi şerimizin yeni nəsillərinin yaradıcılıq təşəkkülündə müstəsna rol oynamışdır və təsdiq edə bilərik ki, bu məktəbin dəyərləri yeni əsrin poeziyası üçün də öz dəyərini qoruyub saxlamışdır.

Yaradıcılığının son mərhələsinə məxsus olan «Xatırlayın» adlı gözəl bir şerində Süleyman Rüstəm bizim üçün cazibədar misralar qoyub getmişdir.

Ey insanlar, asta gəzin torpaq üstə bahar çağı,

Torpaq altda yüz-yüz, min-min ürək yatır.

Qoy onlarla fəxr eləsin yurdumuzun hər bucağı,

Torpaq altda yatsalar da arzuları həyatdadır.

Biz bu həzin misralarda özünün zərif inkasını tapan poeziya gülşənində Süleyman Rüstəmin sənətkar palitrasına məxsus xoş ətirli əlvan çiçəklərin də sayrışdığını görür, tariximizin çox mürəkkəb bir dövründə yaradıcılıq dincliyinin nə olduğunu bilməyən şairi bu gün sevə-sevə xatırlayırıq.

Bütün bunlarla yanaşı, Süleyman Rüstəm həm də vətənpərvər insan idi. Biz həmişə Süleyman Rüstəmi xatırlayanda, onun işıqlı simasını gözlərimizin qarşısına gətirəndə fikirləşirik ki, çox təəssüflər olsun ki, o müstəqil Azərbaycan Respublikasının bayrağını başqa müstəqil dövlətlərin bayraqları ilə bir yerdə dalğalanmasını görmədi. Amma Süleyman Rüstəmin əsərləri bu

gün də bizimlə bir yerdədir, əziz, sevimli, işıqlı xatirəsi daim qəlbimizdədir.

SÜLEYMAN RÜSTƏMIN

HƏYAT VƏ FƏALIYYƏTININ ƏSAS TARIXLƏRI

1906 Süleyman Rüstəm Bakıda anadan olmuşdur.

1922 «Çimnaz xanım yuxudadır» adlı bir pərdəli komediya yazmışdır.

1923 Həmin komediya «Maarif və mədəniyyət» jurnalında dərc olunmuşdur.

1926 Ilk kitabı – Almas Ildırımla birgə yazdığı «Dün bu gün» çapdan çıxmışdır.

1927 «Ələmdən nəşəyə» adlı kitabı nəşr olunmuşdur.

1928 «Komsomol» şerini yazmışdır.

1935 «Çapayev» şerini yazmışdır.

1940 «Qaçaq Nəbi» mənzum pyesini yazmışdır.

1941 «And», «Gün o gün olsun ki», «Ana və poçtalyon», «Qafqaz ordusu», «Qəhrəmanın vəsiyyəti» şerlərini yazmışdır.

1942 «Mən istərəm» poemasını yazmışdır.

1959 «Iki sahil» kitabını yazmışdır.

1959 «Qafurun qəlbi» poemasını yazmışdır.

1963-1965 «Günəşli sahillərdə», «Bahar düşüncələri», «Bir az da məhəbbətdən» kitabları çapdan çıxmışdır.

1970 «Keçilməmiş yollarla» kitabı çapdan çıxmışdır.

1976-1977 «Xəzərimin səhəri», «Ürəyimin gözüyl kitabları çapdan çıxmışdır.

1989 Süleyman Rüstəm Bakıda vəfat etmişdir.

GÖRKƏMLI ŞƏXSIYYƏTLƏRIN

SÜLEYMAN RÜSTƏM HAQQINDA FIKIRLƏRI

«Süleyman Rüstəm çox zəngin bir ədəbi irs üzərində yüksələn şairlərimizdəndir. Yaradıcılığının ilk dövrlərindən onun sənətində, üslubunda, dilində, əsərlərinin şeriyyətində, bir tərəfdən, klassik Azərbaycan şerinin – Füzuli, Seyid Əzim, Sabir sənətinin, «Koroğlu» qoşmalarının, digər tərəfdən, klassik və müasir rus şerinin ənənələri duyulmuşdur.»

Məmməd Cəfər,

Akademik

«Süleyman Rüstəmin Azərbaycan ədəbiyyatında xüsusi bir mövqeyi vardır. Bizim sovet şerimizin ilk nümunələrini şair Süleyman Rüstəm vermişdir.»

Heydər Hüseynov,

akademik

«Süleyman Rüstəm XX əsr Azərbaycan ədəbiyyatında sovet dövrünün yetişdirdiyi, sovet dövründə yazıb-yaratmış və bir sıra əsərlərində sovet gerçəklərini təcəssüm və tərənnüm edən bir şair olmuşdur.»

Elçin Əfəndiyev,

Xalq yazıçısı, ədəbiyyatşünas

«Süleyman Rüstəmin yaratdığı yüzlərlə şerin, onlarla poemanın qəhrəmanları sovet adamlarıdır. O öz əsərlərində dünyada birinci olaraq sosialist cəmiyyəti quran fəhlələrin, kolxozçuların və zəhmətkeş ziyalılarımızın böyük əməllər uğrunda apardığı mübarizəni, onların işini və həyatını təsvir edir.»

Səməd Vurğun,

Xalq şairi

«Süleyman Rüstəm mənim gözümün qarşısında dodağı məzəli sözlü, gözləri gülüşlü, ürəyi ilhamlı, qəlbi Azərbaycan eşqi ilə, ədəbiyyat eşqi ilə yanan bir insan kimi məhz bu cür yaşayır və bu cür də qalır.»

Anar,

Xalq yazıçısı

«Xalq şairi Süleyman Rüstəm şerimizə şöhrət gətirən siyasi lirikanın görkəmli nümayəndəsidir. O şer dünyasında şərəfli bir yol keçmişdir. Süleyman Rüstəm ədəbiyyatımızın şanlı qvardiyaçılarındandır.»

Məmməd Rahim,

Xalq şairi

«Biz ilk dəfə Süleyman Rüstəmin adını haçan eşitmişik ?» Mənə elə gəlir ki, dünyaya göz açıb həyatı dərk etdiyimiz gündən... Əlimizə ilk dəfə dərslik alıb, mürəkkəbli barmaqlarla səhifələri vərəqlədikcə, o söz-söz, sətir-sətir qəlbimizə hopmuş, düşüncələrimizə hakim kəsilmişdir.

«Çaqıl daşlı çayları Çapayev çapa-çapa»

Nəbi Xəzri,

Xalq şairi

SÜLEYMAN RÜSTƏM ƏDƏBI IRSININ KITABXANALARDA TƏBLIĞI


Süleyman Rüstəmin ədəbi irsinin oxucu kütləsinə çatdırılması üçün bütün mədəni-maarif müəssisələri, o cümlədən kitabxanalar qarşısında mühüm vəzifələr durur. Kitabxanalarda çoxsaylı oxucu kütləsinin sorğularını ödəmək məqsədilə kitabxanaçılar Süleyman Rüstəmin həyat və yaradıcılığına dair ədəbiyyatdan geniş istifadə etməlidirlər.

Qeyd etdiyimiz kimi, Süleyman Rüstəm ədəbi irsinin kitabxanalarda təbliği üçün keçirilən tədbirlər planı geniş olmalıdır. Kitabxanalar əyani və təbliğatın – kitab sərgiləri, məruzə, mühazirə, söhbət, biblioqrafik icmal, oxucu konfransları və s. kimi forma və üsullarından geniş şəkildə istifadə etməlidirlər. Çünki bu tədbirlərin keçirilməsi Süleyman Rüstəm və onun yaradıcılığı haqqında oxucuların daha geniş məlumat almalarına imkan yaradır.

Şairin yaradıcılığını təbliğ etmək məqsədilə kitabxanalar ilk növbədə kitab sərgisi təşkil etməlidirlər. Sərginin təşkili zamanı oxucularda Süleyman Rüstəmin yaradıcılığı haqqında geniş təsəvvür yaradılmalıdır. «Süleyman Rüstəm – 100», «Süleyman Rüstəm və poeziya» «Nəğməkar şair» və s. adlı kitab sərgiləri məqsədəuyğundur.

Sərgilər çox vaxt ədəbi-bədii gecələr və yaxud oxucu konfranslarına hazırlıq dövründə tərtib edilir.

Bir sərginin təxmini sxeminin nümunəsini veririk.



1. ***Başlıq:*** «Süleyman Rüstəm – 100»

2. Süleyman Rüstəmin şəkli.

3. Süleyman Rüstəmin 100 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı //Azərbaycan.- 2006.- 7 fevr.

4.

Süleyman, şairsən, bilirsən özün,

Qılıncdan itidir, kəskindir sözün...

Əgər ağarsa da saçın qar kimi,

O gün qapıdadır ilk bahar kimi.

O günü ən yaxşı bir gün eləmək

Bizdən asılıdır, şübhəsiz, gerçək.

Gün o gün olacaq, o gün gələcək,

Bəşər dincələcək, həyat güləcək.

Süleyman Rüstəm

5. Süleyman Rüstəm. Seçilmiş əsərləri. 3 cilddə.- B.: Şərq-Qərb, 2005.

C.1: Vətən təranələri; Sevgi yarpaqları; 1983-cü il şerləri; Mahnılar; Satira və yumor.- 256 s.

C.2: Cənub şerləri; Poemalar; Xatirələr.- 328 s.

C.3: Pyeslər.- 280 s.

6. ***Sitat.*** «Süleyman Rüstəm XX əsr Azərbaycan ədəbiyyatında sovet dövrünün yetihdirdiyi, sovet dövründə yazıb yaratmış və bir sıra əsərlərində sovet gerçəklərini təcəssüm və tərənnüm edən bir şair olmuşdur.»

Elçin Əfəndiyev

Xalq yazıçı, ədəbiyyatşünas

7. ***Sitat.*** «Xalq şairi Süleyman Rüstəm şerimizə şöhrət gətirən siyasi lirikanın görkəmli nümayəndəsidir. O, şer dünyasında şərəfli bir yol keçmişdir. Süleyman Rüstəm ədəbiyyatımızın şanlı qvardiyaçılarındandır.»

Məmməd Rahim

Xalq şairi

8. Nəbiyev B. Söz ürəkdən gələndə.- B.: Yazıçı,1984.- 282 s.

9. Rüstəm S.Ürək döyüntüləri: Şerlər.- B.:Gənclik,1984.-184 s.

10. Rüstəm S.Xəzərimizin şəhəri.- B.:Gənclik,1976.- 223 s.

11. Rüstəm S. Təbrizim: Şerlər və poemalar.- B.: Gənclik, 1986.-232 s.

12. Bu kitabları oxuyun.

Şairin yaradıcılığını geniş oxucu kütləsinə çatdırmaq üçün sual-cavab gecələrindən də istifadə etmək lazımdır. Sual-cavab gecələri bir-birindən fərqli keçirilməlidir.Sual-cavab gecəsi üçün 1 aydan artıq vaxt ayırmaq lazımdır. Həmin dövrdə oxuculara kitabxanaçı tərəfindən hazırlanmış suallar verilməli və suala hazırlaşmaq üçün vaxt təyin edilməlidir. Suallar belə ola bilər:

- Süleyman Rüstəm nə vaxt anadan olmuşdur?
- Ilk təhsilini harada almışdır?
- Ədəbi fəaliyyətə nə vaxtdan başlamışdır?
- Şairin Cənub mövzusunda yazılmış hansı əsərlərini tanıyırsınız?
- Hansı yazıçıların əsərlərini Süleyman Rüstəm Azərbaycan dilinə təpcümə etmişdir?
- Süleyman Rüstəm nə vaxt vəfat etmişdir?

Kitabxana işçiləri söhbətlər və məruzələr vasitəsilə şairin həyatı və yaradıcılığı haqqında geniş məlumat verməlidirlər.

Kitabxanaçılara tövsiyə edirik ki, Süleyman Rüstəmin və onun 100 illik yubileyi haqqında olan materialları mövzu kartotekası şəklində hazırlayıb oxucuların istifadəsinə versinlər.

Göstərilən tədbirlərin təşkilinə kömək məqsədilə aşağıdakı ədəbiyyat siyahısını bu vəsaitə əlavə edirik.

ƏDƏBIYYAT SIYAHISI

Əsərləri

❖ Rüstəm S. Seçilmiş əsərləri. 3 cilddə.- B.: Şərq-Qərb, 2005.

C. 1: Vətən təranələri; Sevgi yarpaqları; 1983-cü il şerləri; Mahnılar; Satira və yumor.- 256 s.

C. 2: Cənub şerləri; Poemalar; Xatirələr.- 328 s.

C. 3: Pyeslər.- 280 s.

❖ Rüstəm S. Seçilmiş əsərləri: (Durna, komediyalar).-B.:Azərnəşr, 1963.-176 s.

❖ Rüstəm S. Günəşli yollarda: (Şerlər).-B.:Gənclik,1972.-167 s.

❖ Rüstəm S.Xəzərimizin şəhəri.-B.:Gənclik,1976.-223 s.

❖ Rüstəm S. Könül: (Lirik şerlər).-B.: Gənclik, 1970.-187 s.

❖ Rüstəm S. Mahnılar, mahnılar: (Şerlər).-B.:Gənclik,1975.-225 s.

❖ Rüstəm S. Mənim günəşim: (Şerlər və poemalar).-B.:Yazıçı,1980.-380 s.

❖ Rüstəm S. Təbrizim: (Şerlər və poemalar).-B.: Gənclik, 1986.-232 s.

❖ Rüstəm S.Ürək döyüntüləri: (Şerlər).- B.:Gənclik,1984.-184 s.

HAQQINDA

❖ Azərbaycanın Xalq şairi Süleyman Rüstəm (Anadan olmasının 80 illiyi münasibətilə).- B.: Elm, 1987.- 181 s.

❖ Xəlilov Q. Həyat və idrak kitabında.- B.:Yazıçı,1980.S.316-329.

❖ Nəbiyev B. Söz ürəkdən gələndə.- B.: Yazıçı, 1984.- 282 s.

❖ Şəkili I., Salmanov S. Sanma taleyindən küskündür şerim.-B.:Yazıçı,1996.-125 s.

❖ Vahabzadə I. Süleyman Rüstəm və cənub mövzusu.-B.:Yazıçı,1986..-128 s.

❖ Zeynallı A. Keçilməmiş yollarda.-Elm, 1970.- 204 s.

❖ Zeynallı A. (Anadan olmasının 70 illiyi münasibətilə).- B.: Elm, 1975.- 51 s.

* * *

❖ Süleyman Rüstəmin 100 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı //Azərbaycan., 2006.- 7 fevr.

❖ Abdin T. Iran türklərinə hayqıran şair: (Xalq şairi S.Rüstəm haqqında 1996-cı ildə Türkiyənin «Ortadoğu» qəzetində nəşr olunmuş məqalə) //Ədalət.,2006.-22 apr.S.7

❖ Baharlı M. Xalq şairi ilə söhbət: (S.Rüstəm-100) //Azərbaycan müəllimi.,2006.-24 mart.- S.2

❖ Əhmədov T. Görkəmli Azərbaycan şairi və ictimai-siyasi xadim (S.Rüstəm-100) // Iki sahil., 2006.- 15 apr.-S.8

❖ Xalq şairi Süleyman Rüstəmin 100 illik yubileyi ilə əlaqədar xatirə gecəsi keçirilmişdir: (Ibrahim Əbilov adına Mədəniyyət Mərkəzində) //Azərbaycan.,2006.- 1 mart.- S.7.

❖ Xəlilzadə F. Könlünü vətənə verən şair: (Süleyman Rüstəm – 100) //Azərbaycan.- 2006.- 12 mart.- S.6.

❖ Salmanov Ş. Böyük zamanın şairi: (S.Rüstəm-100) //Ədəbiyyat qəzeti.,2006.-21 apr. - S.1-3

❖ Ülvi A.Yeni şerin yeni taxtında əfsanələşən Süleyman (S.Rüstəm-100) // Xalq qəzeti., 2006.-21 apr.-S.7.

ELEKTRON RESURSLARDA

WWW. KITAB.AZ

M***ÜNDƏRICAT***

SÜLEYMAN RÜSTƏM-100..... 3

SÜLEYMAN RÜSTƏMIN HƏYAT VƏ

FƏALIYYƏTININ ƏSAS TARIXLƏRI..... 8

GÖRKƏMLI ŞƏXSIYYƏTLƏRIN SÜLEYMAN

RÜSTƏM HAQQINDA FIKIRLƏRI..... 9

SÜLEYMAN RÜSTƏM ƏDƏBI IRSININ

KITABXANALARDA TƏBLIĞI..... 11

ƏDƏBIYYAT SIYAHISI..... 15

QULAMOVA ZENFIRA

Kitabxanalarda Xalq şairi Süleyman Rüstəmin ədəbi və bədii yaradıcılığının öyrənilməsinə dair materiallar

Nəşriyyat redaktoru: **T.Ağamirova**

Korrektor: **Ş.Əhmədova**

Kompüter dizaynı: **S.Isayeva**

Ünvan: AZ-1000 Bakı ş., Xaqani küç.29;

E-mail : anl @ aznet. org

M.F.Axundov adına

M.F.Axundov adına

Milli Kitabxananın mətbəəsində

ofset üsulu ilə çap olunmuşdur.

Çapa imzalanmışdır: 07.07.06

Tirajı 150

Pulsuz